"De:Ləə iləhə illallahu vəhdəhu lə şərikə ləhu, Allahu Əkbər kəbiran, vəl-həmdu lilləhi kəsiran, Subhənallahi Rabbil-ələmin, lə həvlə və ləə quvvətə illə billəhil-əzizil-həkim!

Sə'ddən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Bir bədəvi ərəb (səhrada yaşayan) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi və dedi: "Mənə söyləməyə zikr öyrət". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi:: "De:Ləə iləhə illallahu vəhdəhu lə şərikə ləhu, Allahu Əkbər kəbiran, vəl-həmdu lilləhi kəsiran, Subhənallahi Rabbil-ələmin, lə həvlə və ləə quvvətə illə billəhil-əzizil-həkim!" (Tək Olan Allahdan başqa ilah yoxdur, onun şəriki yoxdur, Allah ən böyükdür. Allaha çoxlu həmd olsun, aləmlərin Rəbbi olan Allah eyib və nöqsanlardan Pakdır! Qüdrətli və Hikmət sahibi Allahdan başqa heç bir güc və qüdrəti olan yoxdur!) Bədəvi ərəb dedi: Bunlar Rəbbim üçündür. Bəs özüm üçün nə söyləyim? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "De: "Allahummağfirli, vərhəmni,vəhdini,vərzuqni!" (Allahım, məni bağışla, mənə rəhm et, mənə hidayət et və məni ruziləndir!).

[Səhih] [Muslim rəvayət etdi]

Səhrada məskunlaşan bir kişi Allahın Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) ona söyləməyə bir zikr öyrətməsini istədi, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: De ki: "Ləə iləhə illallahu vəhdəhu lə şərikə ləhu"- tövhid şəhadəti ilə başladı ki, onun da mənası -Allahdan başqa haqq məbud yoxdur -deməkdir, Allahu Əkbəru kəbiran"- Yəni: Allah hər şeydən böyükdür və əzəmətlidir. "vəlhəmdu lilləhi kəsiran" Yəni, sifətləri, felləri və saysız-hesabsız nemətlərinə görə Allaha çoxlu həmd olsun. "Subhənallahi Rabbil-ələmin" Yəni, bütün nöqsanlardan münəzzəh və ucadır. "Lə həvlə və ləə quvvətə illə billəhil-əzizil-həkim" Yəni: Allah, Onun köməyi və müvəffəqiyyəti olmadan bir vəziyyətdən digərinə keçid-dəyişiklik yoxdur. Kişi dedi: Bu kəlimələr Rəbbimi zikr və təzim etmək üçündür . Bəs mən özüm üçün necə dua edim? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: De ki: "Allahummağfir li" (Allahım məni bağışla) Günahlarımı silib-örtərək "Vərhəmni" (Və mənə rəhm et) Dini və dünyəvi fayda və mənfəətləri mənə çatdırmaqla "vəhdini" (Mənə hidayət ver) Ən gözəl hala və doğru yola "Vərzuqni" (Və mənə ruzi ver) Halal ruzi, sağlamlıq və bütün xeyir və salamatlıq


النجاة الخيرية
ALNAJAT CHARITY


لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee